# "TELEKOM İNVEST" MMC

# İŞGÜZAR DAVRANIŞ KODEKSİ

| Ad, Soyad | Vəzifə | İmza | Tarix |
|---|---|---|---|
| Hazırladı: Albina Siraclı | İT üzrə layihə meneceri/ BP şirkəti ilə olan müqavilə üzrə koordinator | | 01.03.2021 |
| Yoxladı və razılaşdırıldı: Xalidə Mustafayeva | Maliyyə və administrativ işlər üzrə baş direktor müavini – Baş mühasib | | 02.03.2021 |
| Təsdiq etdi: Ənvər Əhmədov | Baş Direktor | | 03.03.2021 |

**MÜNDƏRİCAT**

BAŞ DİREKTORUN MÜRACİƏTİ....................3
KODEKSİMİZ NƏDİR VƏ ONA KİMLƏR ƏMƏL ETMƏLİDİR....................4
MƏSULİYYƏTLİ VƏ TƏHLÜKƏSİZ FƏALİYYƏT....................4
ƏMƏKDAŞLARIMIZ....................4
TƏCHİZATÇILARIMIZ, PARTNYORLARIMIZ VƏ MÜŞTƏRİLƏRİMİZ....................5
DÖVLƏT ORQANLARI İLƏ İŞLƏRİN APARILMASI....................6
MALİYYƏ SAHƏSİNDƏKI ŞƏFFAFLIĞIMIZ....................6
SPONSORLUQ VƏ İANƏLƏR....................7
ƏLAVƏ 1 – KORRUPSIYA VƏ RÜŞVƏTXORLUĞA QARŞI MÜBARİZƏ S İ Y A S Ə T İ
ƏLAVƏ 2 – MARAQLARIN TOQQUŞMASI SİYAHISI VƏ BƏYAN EDİLMƏSİ FORMASI
ƏLAVƏ 3 – TƏCHİZATÇILAR ÜÇÜN SORĞU VƏRƏQƏSİ
ƏLAVƏ 4 – DÖVLƏT ORQANLARI İLƏ İŞLƏRİN APARILMASI QAYDALARI
ƏLAVƏ 5 – HƏDİYYƏLƏR, QONAĞLIQ, ƏYLƏNCƏ VƏ SƏYAHƏT ÜZRƏ TƏLİMAT
ƏLAVƏ 6 – HƏDİYYƏ, QONAQLIQ, ƏYLƏNCƏ VƏ SƏYAHƏT JURNALI
ƏLAVƏ 7 – KODEKSİN POZULMASI HAQQINDA HESABAT FORMASI
ƏLAVƏ 8 – KODEKSİN POZULMALARI REYESTRİ

**Baş direktorun müraciəti**

Əziz Həmkarlar,

bu sənəddə əks olunan qaydalar, siyasət və təlimat "Telekom İnvest" üçün biznes fəaliyyətinin aparılmasında və idarə olunmasında aparıcı təlimatlardır. Gəlin hamımız bu prinsiplər və qaydalar ilə yaxından tanış olub, təhlil edək və anlayaq. Sizin bu kodekslə bağlı suallarınız yarandığı halda və ya bu kodeksdən irəli gələn təklifləriniz olduğu halda Hüquqşünasımızdan və ya İnsan Resursları üzrə mütəxəssisimizdən açıqlanmasını xahiş etməli və onların rəyini öyrənməlisiniz.

Əminəm ki, bu kodeksimizdə əks olunan qaydalara və prinsiplərə əməl etməklə, "Telekom İnvest" illərlə qazandığı nüfuzunu və etibarını qorumağa və gücləndirməyə nail olacaq.

Öz növbəmdə mən, Cəmiyyətin baş direktoru olaraq, bütün əməllərimdə və qərarlarımda Kodeksin tələblərinə və eləcə də korrupsiyaya qarşı prinsiplərinə dəqiq riayət edəcəyimə söz verirəm. "Cəmiyyətin əməkdaşı" adını daşıyan əməkdaşlarımdan və işçilərdən də eyni hərəkət tərzi gözləyirəm. Bütövlükdə Cəmiyyətimizin və fərdi olaraq hər birimizin inkişafı və firavanlığı məhz bundan asılıdır.

Şirkətimizin bu mövqeyinin dəstəklənməsinə sərf edəcəyiniz əməyə və göstərəcəyiniz diqqətə görə öncədən təşəkkürümü bildirirəm.

TELEKOM İNVEST

ƏNVƏR ƏHMƏDOV

"TELEKOM İNVEST" MMC-nin BAŞ DİREKTORU

## 1. Kodeksimiz nədir və ona kimlər əməl etməlidir

Kodeksimiz əməkdaşların və digər şəxslərin məlumatlanmasına, etik normalara uyğun qərarlar qəbul etməsinə kömək edən faydalı bir vasitədir.

Kodeksimiz "Telekom İnvest" şirkətinin bütün əməkdaşlarına, məsul işçilərinə və Rəhbərlik nümayəndələrinə şamil edilir. Biz bütün təchizatçılarımızdan, müştərilərimizdən, partnyorlarımızdan və onların işçilərindən Kodeksimizə uyğun şəkildə fəaliyyət göstərməyi gözləyirik və onları buna dəvət edirik.

## 2. Məsuliyyətli və təhlükəsiz fəaliyyət

Bizim üçün heç bir şey işçi qüvvəmizin sağlamlığından, texniki və fiziki təhlükəsizliyindən, eləcə də, ətraf mühitə məsuliyyətlə yanaşmaqdan daha önəmli deyil. Biz sayıq və intizamlı olmalı və həmişə bir-birimizin qeydinə qalmalıyıq. Hədə-qorxulara, şantaja və zorakılığa yol verilməyəcək.

- ✓ Peşəkarlaşmadığınız işi yerinə yetirməyin.
- ✓ Özünüz yaxud başqaları tərəfindən görülən işin təhlükəli olduğunu hesab etdiyinizdə həmin işi dayandırın.
- ✓ Ətraf mühitin mühafizəsində öz üzərinizə düşən vəzifələri yerinə yetirin.

## 3. Əməkdaşlarımız

"Telekom İnvest"-in uğurlu fəaliyyətinin təməlində əməkdaşlarımız dayanır. Biz şirkət olaraq öz məqsədimizə bir-birimizə hörmətlə yanaşdıqda və dəyər verdikdə çatırıq. Bizim hamımızın hörmət və ədalət prinsiplərinə əsaslanan korporativ mədəniyyətin qorunub saxlanılmasında müəyyən rolu var.

Biz müxtəlif ixtisas və fərqli istedadlara və ideyalara malik olduğu bir mühitdə işlədiyi zaman daha çox nailiyyətlər əldə edirik.

Biz istənilən formada təhqir və ya sıxışdırma hallarını dözülməz hesab edirik. Unutmayın ki, iş yerində sıxışdırılma halları olmamalıdır.

- ✓ Bütün növ sataşma/sıxışdırma hallarından uzaq iş mühiti yaratmağa kömək edin.
- ✓ Cinsi xarakterli yersiz atmacalar və ya cinsi zəmində hər hansı digər kobud davranışlar dözülməz hesab ediləcək.

"Telekom İnvest" öz əməkdaşlarının şəxsi həyatının toxunulmazlığına hörmətlə yanaşır. Biz yalnız səmərəli şəkildə fəaliyyət göstərmək və ya qanunlara riayət etmək üçün zəruri olduqda şəxsi məlumatlardan istifadə edə bilərik.

"Telekom İnvest" işçiləri hər hansı faktiki və ya potensial maraqların toqquşması vəziyyətinin yaranmasına səbəb ola bilən və ya şirkətdəki vəzifələrini icra etdikləri zaman hər bir halda onların fəaliyyət sərbəstliyinə və ya fikir yürütmə imkanına neqativ təsir göstərə bilən münasibətlərə qoşulmaqdan çəkinməlidir.

- ✓ Maraqların toqquşa biləcəyi bir çox müxtəlif hallardan xəbərdar olun. Məsələn:
  - Rəqiblər, müştərilər və ya təchizatçılar ilə kənar işlər və münasibətlər.
  - Dövlət məmurları və ya onların yaxın qohumları ilə iş görmək.
  - Məsul işçilərin, direktorların və ya aparıcı əməkdaşların Dövlət Qulluqçuları və ya keçmiş Dövlət Qulluqçuları ilə qohumluq münasibətlər.
  - Digər təşkilatın idarə heyətinin üzvü kimi fəaliyyət göstərmək.
- ✓ Maraqların toqquşmasına səbəb ola biləcək hallar barədə məlumat verin. Bu cür vəziyyət öncədən bilindiyi halda, bizim həmin vəziyyəti daha yaxşı aradan qaldırmaq imkanımız olur.

Maraqların toqquşmamasını təmin etmək üçün hər il ildə bir dəfə olmaqla bütün əməkdaşlarımız bu Kodeksə əlavə olunan - "Əlavə 2" - MARAQLARIN TOQQUŞMASI SİYAHISI VƏ BƏYAN EDİLMƏSİ FORMASI-nı doldurub İR üzrə menecerimizə təqdim etməlidirlər.

## 4. Təchizatçılarımız, partnyorlarımız və müştərilərimiz

Biz öz təchizatçılarımızla, partnyorlarımızla və müştərilərimizlə düzgünlük, qarşılıqlı hörmət və məsuliyyətlilik prinsipləri əsasında çalışırıq. "Telekom İnvest" özu digər şirkətlər üçün etibarlı tərəfdaşdır.

Təchizatçılarımız bizim fəaliyyətini həyata keçirmək və müştərilərin gözləntilərinə cavab vermək üçün böyük əhəmiyyət kəsb edir. Buna görə də, biz onları diqqətlə seçirik və obyektiv seçim prosesindən istifadə edirik. Bu seçim prosesində Kodeksə əlavə olunan – "Əlavə 3" - TƏCHİZATÇILAR ÜÇÜN SORĞU VƏRƏQƏSİ-nin müvafiq təchizatçı tərəfindən doldurulmuş nüsxəsi təhlil edilir.

Rəqabətə xələl gətirən davranışların qarşısını almaq üçün aşağıda göstərilən fəaliyyətlərlə məşğul olmayın:

- Yalançı qiymət təkliflərini vermək;
- Sifarişçiləri bölüşdürmək;
- Təchizatı məhdudlaşdırmaq üçün hər hansı formada razılaşmalara gəlmək.

**5. Dövlət Orqanları ilə İşlərin Aparılması**

"Telekom İnvest" hər hansı Dövlət Məmurunun, yaxud hər hansı siyasi partiyanın və ya hər hansı üçüncü tərəfin istifadəsi və ya xeyri üçün birbaşa və ya hər hansı digər şəxs vasitəsilə, hər hansı müvafiq antikorrupsiya qanunvericiliyinin pozulacağı hesab edilən nəğd və ya başqa yolla heç bir bilavasitə və ya dolayı ödəniş, hədiyyə, və/ və ya başqa bir mənfəət ödəməməli, təklif etməməli və ya buna icazə verməməlidir.

"Telekom İnvest" Antikorrupsiya Qanunvericiliyi şərtlərinin hər hansı birinin pozula biləcəyini bilərək, hər hansı bir şəxslə kommersiya fəaliyyəti ilə məşğul olmamalıdır. Dövlət orqanların nümayəndələri ilə sövdələşmələrdə xüsusi diqqət göstərilməlidir. "Telekom İnvest" yalnız hər hansı dövlət orqanı ilə hər hansı bir müqavilənin lazımi qaydada icrası və ya yerinə yetirilməsi ilə əlaqədar əsaslandırılmış və qanunla yol verilən xərclərini ödəyə bilər.

Dövlət Orqanları ilə iş bu Kodeksə əlavə olunan – "Əlavə 4" - DÖVLƏT ORQANLARI İLƏ İŞLƏRİN APARILMASI QAYDALARI-na əməl etməklə aparılmalıdır.

Biz öz fəaliyyətimizdə istənilən növ rüşvətxorluğu və korrupsiyanı dözülməz hesab edirik. Biz rüşvətxorluqla mübarizə haqqında qanunlara və qaydalara, eləcə də bu kodeksin ayrılmaz hissəsi olan – Əlavə 1- **Korrupsiya və Rüşvətxorluğa Qarşı Mübarizə S İ Y A S Ə T-ə** riayət edirik və bütün dünyada rüşvətxorluğun və korrupsiyanın aradan qaldırılmasına yönəlmiş səylərə dəstək oluruq.

**6. Maliyyə sahəsindəki şəffaflığımız**

"Telekom İnvest", öz məxfilik öhdəliklərinə hörmətlə yanaşaraq, bütün razılaşmalarda şəffaflığı və dəqiqliyi əsas tutur. Məhz buna görə, məsul işçilər "Telekom İnvest"-in fəaliyyəti və biznes əlaqələri barədə zəruri qeydlərin aparılmasına cavabdehlik daşıyır. Bizim mühasibat kitablarına və sənədlərinə heç bir saxta və ya yanlış və ya dəqiq olmayan qeydlər daxil edilə bilməz. Bütün pul əməliyyatları bütünlüklə və tam şəkildə bizim mühasibat uçotu sənədlərinə daxil edilməlidir. Bütün

xərclər və məsrəflər, gəlirlər və mədaxillər, gəlirlər və çıxarlar və maliyyə öhdəlikləri maliyyə informasiyasına vaxtında, tam və dəqiq şəkildə daxil edilməli və hər hansı mövcud qanunvericiliyə və müvafiq daxili nəzarət sistemi şərtlərinə uyğun şəkildə təqdim edilmiş müvafiq təsdiqləyici sənədlərə malik olmalıdır.

**7. Sponsorluq və İanələr**

Sponsorluq və ianələr biznesimizi inkişaf etdirmək və xidmət etdiyimiz cəmiyyəti dəstəkləməyimiz üçün yaxşı yoldur. Biz bunları hər zaman etik yolla biznes məqsədlərimizi dəstəkləyən və sosial dəyər yaradacaq şəkildə planlaşdırmalıyıq və fəaliyyət göstərməliyik.

Rüşvət hesab edilə biləcək siyasi ödəmələr və ya xeyriyyəçilik və ya sponsorluğa yol verilmir. Yalnız biznes və davamlılıq strategiyamıza uyğun olan dəstəyi təklif edib və ya qəbul edirik. Hər zaman seçimləri reputasiya və korrupsiya riskləri baxımından qiymətləndiririk, seçimləri sənədləşdiririk və bütün lazımi addımlara əməl edirik.

**Əlavə 1**

**Korrupsiya və Rüşvətxorluğa Qarşı Mübarizə S İ Y A S Ə T İ**

**1. Məqsəd**

Korrupsiya və Rüşvətxorluğa Qarşı Mübarizə Siyasətinin məqsədi korrupsiyaya qarşı qlobal qaydalarına, etik və peşəkar prinsiplərinə, qanunvericiliyə riayət olunmasını təmin etməkdir.

**2. Tətbiq Sahəsi**

Korrupsiya və Rüşvətxorluğa qarşı mübarizə siyasəti aşağıdakıları əhatə edir:

- ✓ Bütün "Telekom İnvest" işçilərini,
- ✓ Müştərilərimizi,
- ✓ Təchizatçılarımızı,
- ✓ Partnyorlarımızı və biznes tərəfdaşlarımızı

**3. Əsas Anlayışlar**

Korrupsiya– birbaşa və ya dolayı yollarla vəzifə səlahiyyətindən sui-istifadə etməkdir.

Rüşvət –bir şəxsin özü və yaxud üçüncü şəxslər üçün birbaşa və ya dolayı yolla, şəxsən və ya vasitəçidən istifadə etməklə maddi və sair neməti, imtiyazı və ya güzəşti istəməsi və ya alması, yaxud bu barədə təklif və ya vədi qəbul etməsidir.

**4. Funksiyalar və məsuliyyət sahəsi**

**4.1** Baş direktor – Bu Siyasətin yerinə yetirilməsi və ona riayət olunması və bütün əməkdaşların, maraqlı tərəflərin və biznes tərəfdaşların bu siyasət və onun tələbləri ilə tanış olmasına görə məsuliyyət. Bu siyasətin hər il təsdiqlənməsinə görə məsuliyyət.

**4.2** Hüquqşünas – Bu təlimatda göstərilən təsvirə əsasən siyasətə riayət olunmasının təmin edilməsində kömək üçün öyrədici tədbirlərin, treninqlərin və monitorinq tədbirlərin keçirilməsinə görə məsuliyyət.

**4.3** Bütün əməkdaşlar, təchizatçılar, müştərilər və biznes tərəfdaşları - Bu siyasətə riayət olunmasına görə məsuliyyət

**5. Hədiyyələr, Qonaqlıq, Əyləncə və Səyahət**

Biz hər hansı biznes fəaliyyəti, xidmətlər yaxud məxfi məlumatlar müqabilində və ya qərara təsir göstərmək məqsədilə hədiyyələr, qonaqlıq, əyləncə və ya səyahət qəbul etmirik və ya təqdim etmirik.

Hər hansı növ qazanc əldə etmək və ya hər hansı biznes qərarının nəticəsinə təsir göstərmək məqsədi ilə hər hansı hədiyyə verilə və ya hər hansı formada qonaqpərvərlik göstərilə bilməz. "Telekom İnvest" işçiləri, "Telekom İnvest"-lə biznes əlaqələrinə cəlb olunmuş, əsas məqsədi biznes qərarlarına təsir göstərmək olan hər hansı şəxsə/şəxsdən hədiyyələr, pul, borc, dəvətlər və ya hər hansı başqa xüsusi münasibət formasını təklif/qəbul etməməli, və ya hər hansı ailə üzvünə və ya qohumuna bunları qəbul etmək izni verməməlidir.

Hədiyyələr, qonaqlıq, əyləncə və səyahət-lə bağlı müvafiq davranış "İşgüzar davranış Kodeksə" əlavə olunan – "Əlavə 5"- HƏDİYYƏLƏR, QONAĞLIQ, ƏYLƏNCƏ VƏ SƏYAHƏT ÜZRƏ TƏLİMAT-la müəyyən edilir.

Hədiyyələr, qonaqlıq, əyləncə və səyahət-lə bağlı müvafiq qeydlər "İşgüzar davranış Kodeksə" əlavə olunan – "Əlavə 6" - HƏDİYYƏ, QONAQLIQ, ƏYLƏNCƏ VƏ SƏYAHƏT JURNALI-nda aparılır.

**6. Rüşvətxorluq və Korrupsiya**

"Telekom İnvest" rüşvət və korrupsiyanın bütün növlərinə qarşı çıxır və müvafiq qanunlara, qaydalara və prinsiplərə riayət olunmasını təmin etmək niyyətindədir. Məqsədindən asılı olmayaraq, rüşvətin alınması və ya təklif olunması qəbul edilməzdir.

"Telekom İnvest" hər hansı Dövlət Məmurunun, yaxud hər hansı siyasi partiyanın və ya hər hansı üçüncü tərəfin istifadəsi və ya xeyri üçün birbaşa və ya hər hansı digər şəxs vasitəsilə, hər hansı müvafiq antikorrupsiya qanunvericiliyinin pozulacağı hesab edilən nəğd və ya başqa yolla heç bir bilavasitə və ya dolayı ödəniş, hədiyyə, və/ və ya başqa bir mənfəət ödəməməli, təklif etməməli və ya buna icazə verməməlidir.

Çirkli pulların yuyulması qanunsuz maliyyə vəsaitlərinin gizlədilməsi və ya onların qanuni şəkilə salınmağa çalışılması prosesidir. Buraya həmçinin qanuni maliyyə vəsaitlərindən cinayət və ya terrorizmin dəstəklənməsi məqsədilə istifadə olunması halları da daxildir. "Telekom İnvest" heç bir zaman çirkli pulların yuyulmasına yol vermir, imkan yaratmır və ya dəstəkləmir.

**7. Qeydlər, Mühasibat Üçotu və Ödənişlər**

Bizim mühasibat kitablarına və sənədlərinə heç bir saxta və ya yanlış və ya dəqiq olmayan qeydlər daxil edilə bilməz. Bütün pul əməliyyatları bütünlüklə və tam şəkildə bizim mühasibat uçotu sənədlərinə daxil edilməlidir. Bütün xərclər və məsrəflər, gəlirlər və mədaxillər, gəlirlər və çıxarlar və maliyyə öhdəlikləri maliyyə informasiyasına vaxtında, tam və dəqiq şəkildə daxil edilməli və hər hansı mövcud qanunvericiliyə və müvafiq daxili nəzarət sistemi şərtlərinə uyğun şəkildə təqdim edilmiş müvafiq təsdiqləyici sənədlərə malik olmalıdır.

**8. Təlimatlandırma**

"Telekom İnvest"-in əməkdaşları və biznes tərəfdaşları Rüşvətxorluq və Korrupsiyaya Qarşı Mübarizə Siyasəti barədə fasiləsiz və rahat internet saytı vasitəsilə tanış ola bilərlər. Bundan əlavə ildə bir dəfə təşkil olunan müvafiq treninq və təlim vasitəsi ilə bu siyasətin əsas tələbləri bütün əməkdaşlara çatdırılmalıdır.

**9. Pozuntular və şübhəli hallar barədə məlumatın verilməsi və pozulmalara görə inzibati tədbirlər**

**9.1** Bütün əməkdaşlar bu siyasətə riayət olunmasına görə məsuliyyət daşıyır.

**9.2** Bu siyasətin pozulmasının şahidi olan istənilən əməkdaş Hüquqşünas və ya İnsan Resursları üzrə mütəxəssisimiz ilə dərhal əlaqə saxlamalıdır.

**9.3** Hüquqşünas və ya İnsan Resursları üzrə mütəxəssisimiz bu pozuntular haqqında müvafiq hesabat hazırlayıb baş direktora təqdim etməlidir. Bu hesabat "İşgüzar davranış Kodeksi"-nə əlavə olunan – "Əlavə 7" - KODEKSİN POZULMASI HAQQINDA HESABAT FORMASI-nda yazılmalıdır və bütün pozulmalar "İşgüzar davranış Kodeksi"-nə əlavə olunan – "Əlavə 8" - KODEKSİN POZULMALARI REYESTR-da saxlanılmalıdır.

**9.4** Bu Siyasətin pozulmasına görə aşağıdakı inzibati tədbirlər tətbiq olunacaq:

**9.4.1** Müvafiq pozulmaya görə yazılı Xəbərdarlıq

**9.4.2** Pozulma halları 2 dəfədən artıq baş verdikdə Milli Qanunvericiliyə müvafiq olaraq cari müqaviləyə xitam veriləcək.